

# Musa YAQUB

Amansız ölüm Xalq şairi, müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, çağdaş poeziyamıza yeni nəfəs, zəngin üslub yenilikləri gətirmiş Musa Yaqubu mayın 7-də aramızdan apardı.

Musa Səfiməmməd oğlu Yaq ov 10 may 1937-ci ildə İsmayıllı rayonunun Buynuz kəndində anadan olub. Göyçay Pedaqoji Məktəbini bitirdikdən sonra Tircan kənd orta məktəbində müəllim (1957-1958), Buynuz kənd ibtidai məktəbində müəllim və müdir (1958-1967) işləyib. Sonra Bakıya köçən şair Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda direktor müavini "Azərbaycan" jurnalında Poeziya şöbəsinin müdiri (1974-1978), İsmayıllı rayonunda çıxan "Zəhmətkeş" qəzetinin baş redaktoru (1978-2000) olub.

Görkəmli şair Birinci çağırış Milli Məclisin deputatı seçilib (1995-2000), rəsmi nümayəndə heyətinin tərkibində İran, Türkiyə və Kipr ölkələrində səfərdə olub.

Musa Yaqub ədəbi fəaliyyətə 1957-ci ildə mətbuatda çap etdirdiyi "İki qəlb, iki dünya" poeması ilə başlayıb. Moldovada Sovet ədəbiyyatı günlərində, Ukrayna və Özbəkistanda Azərbaycan ədəbiyyatı günlərində və digər beynəlxalq tədbirlərdə ədəbiyyatımızı layiqincə təmsil edib.

Görkəmli sənətkar həm də İsmayıllı rayon Xalq Deputatları Sovetinin deputatı olub. M.F.Axundov adına mükafatının laureatı idi. 24 may 2019-cu ildə "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adına layiq görülüb. "Yarpaqlar oxuyur", "Bu məhəbbət yaşadır məni", "Mənim kainatım", "Üzü bəri baxan dağlar", "Yaxşı ki, sən varsan", "Bir sim üstə", "İki qəlbin işığı", "Nanə yarpağı", "Payızdan yaza yol varmı" kitabları geniş oxucu marağı ilə qarşılanıb.

Səmimi və həssas insan, görkəmli şair Musa Yaqubun xatirəsi onu tanıyanların və ədəbiyyatsevərlərin qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**